

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 211 (23.122)

*3 noyabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Beynəlxalq Hava Limanına yeni maşın-mexanizmlər və xidməti avtomobillər verilmişdir





Muxtar respublikada hava nəqliyyatının inkişafı diqqət mərkəzində saxlanılır, Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası gücləndirilir.

Noyabrın 2-də Naxçıvan Beynəlxalq Hava Limanına yeni maşın-mexanizmlər və xidməti avtomobillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov maşın-mexanizmlərə və xidməti avtomobillərə baxmışlar.

Qeyd olunmuşdur ki, Naxçıvan Beynəlxalq Hava Limanının nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bu il də davam etdirilmiş, hava limanına 25 adda 30 yeni texnika və avtomobil alınmışdır. “Skymark”



markalı yanacaqvuran, “Man” markalı yanacaqdaşıyan və yanğınsöndürən, “Mercedes” markalı xüsusi təyinatlı qartəmizləyənlər, “Schmidt” markalı yolsüpürən, “Trepel” markalı yükləyici maşınlar, təyyarə yedəkləri, yüksəldici platforma, “Trepel” markalı təyyarəçəkən, “Sherpa” markalı 4 tonluq baqajçəkmə traktorları, yükqaldıran maşınlar və digər mexanizmlər yüksək texniki göstəricilərə malikdirlər. “Mercedes Sprinter” markalı 2 mikroavtobus, “Fiat Doblo”, “NAZ-Lifan” və “Mitsubishi” markalı minik avtomobilləri də işçi heyətin rahat hərəkətini təmin edəcəkdir.

Müasir infrastrukturun yaradılması, yeni maşın-mexanizmlərin və avtomobillərin alınması istənilən hava şəraitində xidmətin rahat və təhlükəsiz təşkilinə imkan verəcəkdir.

## Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağı inşa olunur





Coğrafi cəhətdən əlverişli mövqedə yerləşməsi, müasir inkişafı və turizm potensialı Naxçıvan Muxtar Respublikasında hava nəqliyyatına olan tələbatı artırır, mülki aviasiya sahəsində müasir infrastruktur yaradılır. Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası da bu sahədə görülən işlərin davamıdır.

Noyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağında aparılan tikinti işləri ilə maraqlanmışlar.

Məlumat verilmişdir ki, uçuş-enmə zolağının uzunluğu 3300, eni isə 60 metrdir. Hazırda ərazidə torpaq işləri görülür. Tikinti işləri aparılarkən texniki tələblərə tam əməl olunur. Ərazidə yağış və qrunt sularının axıdılması üçün drenaj və kollektorlar qazılmışdır. Hazırda uçuş-enmə zolağının torpaq qatı bərkidilir, mühəndis-kommunikasiya xətləri çəkilir, yanğın nəzarət qülləsi inşa olunur. Müasir tələblər səviyyəsində tikilən uçuş-enmə zolağına keyfiyyətli asfalt-beton örtük salınacaqdır.

Yeni uçuş-enmə zolağı istifadəyə verildikdən sonra Naxçıvan Beynəlxalq Hava Limanında yük və sərnişin dövriyyəsinin həcmi artacaqdır.

Ali Məclis Sədri tikinti işlərinin keyfiyyətlə aparılması, eləcə də aviasiya təhlükəsizliyi ilə bağlı tələblərə əməl edilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Araz-Türk Respublikasının yaranmasının 100 illiyi ilə əlaqədar elmi konfrans keçirilib

AMEA Naxçıvan Bölməsində “Araz-Türk Respublikası: yaranması, fəaliyyəti, nəticələri” mövzusunda keçirilən elmi konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq qeyd edib ki, 1918-ci il noyabrın 3-də yaradılan Araz-Türk Respublikasının fəaliyyəti təkcə o dövr üçün yox, bütövlükdə, bölgənin taleyi, bu günü və gələcəyi üçün çox böyük tarixi əhəmiyyət daşıyır. Akademik bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi ilk ildə çətin daxili və xarici amillərlə qarşılaşıb və Naxçıvan diyarına istənilən səviyyədə diqqət yetirə bilməyib. Bundan istifadə edən erməni daşnakları buraya ardı-arası kəsilməyən basqınlar edib, əhaliyə qarşı soyqırımı törədib, Naxçıvanı işğal etmək istəyib. Lakin yerli əhali düşmənə qarşı mübarizə üçün birləşib və qədim diyarımızın ermənilər tərəfindən zəbt olunmasına imkan verməyib.

Diqqətə çatdırılıb ki, paytaxtı Naxçıvan şəhəri, sahəsi 8,7 min kvadratkilometr, əhalisi bir milyondan artıq olan Araz-Türk Respublikasının hüdudları Naxçıvan, Şərur-Dərələyəz qəzaları, Ordubad mahalını, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri, Sürməli və digər əraziləri əhatə edib. Hökumətin hərbi qərargahı Naxçıvan xanlarının şəhərin mərkəzində olan binasında yerləşib.

Tədbirdə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun “Araz-Türk Respublikasının yaranması ərəfəsində bölgədə ictimai-siyasi vəziyyət”, Qafqaz tarixi şöbəsinin müdiri, dosent Emin Şıxəliyevin “Araz-Türk Respublikasının yaranması və bölgəni erməni işğalçılarından qorumaq uğrunda mübarizəsi”, Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, dosent Toğrul Xəlilovun “Araz-Türk Respublikasının Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrinə dair”, Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Araz-Türk Respublikasının fəaliyyətində Naxçıvan hərbçilərinin iştirakı” mövzusunda məruzələri dinlənilib.

Sonda məruzəçilər tədbir iştirakçılarının suallarını cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Rəssam Səyyad Bayramovun 60 illik yubileyi qeyd olunub

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovun 60 illik yubileyi qeyd olunub.*

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq muxtar respublikada tanınmış sənət adamlarına göstərilən yüksək dövlət qayğısından bəhs edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək bildirib ki, Səyyad Bayramov ömrünün 30 ildən çoxunu Naxçıvan teatrına, muxtar respublikada rəsm sənətinin inkişafına həsr etmiş, 20-dən artıq tamaşaya tərtibat vermişdir. Onun yaxından iştirakı ilə ərsəyə gələn Hüseyn Cavidin "Topal Teymur", Nəriman Nərimanovun "Nadir şah", Nazim Hikmətin "Kor padşah", Məmməd Səid Ordubadinin "Qılınc və qələm" əsərləri böyük tamaşaçı marağına səbəb olmuşdur. Səyyad Bayramov rəssamlıq sənətinin digər janrlarında da uğurlu nümunələr yaratmışdır. O, muxtar respublikada keçirilən yaradıcılıq müsabiqələrində və təşkil olunan sərgilərdə yaxından iştirak edir, maraqlı rəsm əsərləri ilə tamaşaçının rəğbətini qazanır. Səyyad Bayramov gənc rəssam kadrların yetişməsində də yaxından iştirak edir. O, Rəssamlar Birliyinin üzvü kimi üzərinə düşən ictimai vəzifələrin öhdəsindən layiqincə gəlir. Səyyad Bayramovun yaradıcılığı və əməyi yüksək qiymətləndirilmiş, 2008-ci ildə o, "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adına, 2013-cü ildə isə Azərbaycan Respublikasının Prezident təqaüdünə layiq görülmüşdür. Bu gün 60 yaşı tamam olan Səyyad Bayramov yaradıcılığının məhsuldar bir dövrünü yaşayır.

Əli Həsənov gələcəkdə də muxtar respublikamızda mədəniyyətin inkişafına öz töhfəsini verəcəyinə dərin inamla Səyyad Bayramovu Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adından təbrik edib və ona yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev çıxış edərək yubilyarı təbrik ediblər.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov yaradıcılığına yüksək qiymət verildiyinə, göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**

## Dekorativ-tətbiqi sənət ustaları və rəssamların töhfələri

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" ilinə dekorativ-tətbiqi sənət ustalarının töhfələri" adlı rəsm sərgisinin açılışı olub.*

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edib. O bildirib ki, bu gün sənətə, sənət adamlarına böyük qayğı ilə yanaşılan muxtar respublikamızda mədəniyyətin bir çox sahələrində olduğu kimi, rəssamlıq sahəsində də nailiyyətlər, uğurlar qazanılıb. Ölkəmizin mədəni inkişafında fəal rol oynayan rəssamlarımızın bir çoxuna fəxri adların və mükafatların verilməsi onların fəaliyyətinə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu gün naxçıvanlı rəssamların əsərləri təkcə Azərbaycan Respublikasında deyil, xarici ölkələrdə də sərgilənir. Burada təşkil edilən rəsm sərgisi isə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" ilinə həsr olunmuş sonuncu sərgidir.

Daha sonra Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış ediblər.

Sonra sərgiyə baxış olub. Qeyd edək ki, sərginin ekspozisiyasında 13 rəssamın 100-ə yaxın rəsm əsəri və əl işləri sərgilənib, onların bir qisminin satışı təşkil olunub.

Sərgidə əsərləri nümayiş olunan iştirakçılara birlik tərəfindən təşəkkürnamə təqdim edilib.

Sərgi noyabr ayının 10-dək davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər 5 noyabr 2018-ci il tarixdən 5 dekabr 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək məqsədilə test imtahanında iştirak üçün qanunvericilikdə müəyyən edilmiş ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | **1. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | | | |
| 700014 | Aparat. Mühasibat uçotu üzrə | 1 | 5 | böyük məsləhətçi |
| 700015 | Aparat | 3 | 5 | hakim köməkçisi |
| 700036 | Aparat. Məhkəmə iclas katibi | 4 | 5 | məsləhətçi |
| 700406 | Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi | 1 | 5 | məsləhətçi |
| 700506 | İcra məmurları şöbəsi | 4 | 5 | icra məmuru |
| 700306 | Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi | 1 | 5 | məsləhətçi |
| 700105 | Vətəndaşların qəbulu və məktublara baxılması şöbəsi | 1 | 5 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **15** | | |
| | **2. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı** | | | |
| 120233 | Hüquqi maarifləndirmə, elmi analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsi. Qeyri-hökumət təşkilatları üzrə | 1 | 5 | baş məsləhətçi |
| 120123 | İnsan hüquqlarının müdafiəsi şöbəsi. Qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi üzrə | 1 | 5 | baş məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **3. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi** | | | |
| 910023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş inspektor |
| | **Cəmi:** | **1** | | |
| | **4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi** | | | |
| 960023 | Təşkilat-nəzarət şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **5. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi** | | | |
| 310413 | Kadrlar və sənədlərlə iş şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **6. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| 200325 | İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi. Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 209403 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| 202405 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 204406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ordubad rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 203406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Culfa rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 206406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Kəngərli rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 205406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şahbuz rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **7** | | |
| | **7. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| 210026 | Aparat. Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| 210203 | Məşğulluq və miqrasiya şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 210103 | Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| | **7.1 Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | |
| 211033 | Əməyin sosial-hüquq məsələləri üzrə nəzarət sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| 211047 | Ümumi işlər və maliyyə-təsərrüfat sektoru | 1 | 7 | baş mühasib |
| | **7.2 Dövlət Məşğulluq Xidməti** | | | |
| 212003 | Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 214003 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 2 | 7 | baş məsləhətçi |
| 214005 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 216005 | Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 215003 | Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 217006 | Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| | **7.3 Dövlət Sosial Təminat Xidməti** | | | |
| 211085 | Sosial yardım və sosial müavinətlərin ödənişinin təhlili və nəzarət sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 218163 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | baş məsləhətçi |
| 218186 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 219013 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 219025 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 219036 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 212013 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | baş məsləhətçi |
| 212025 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 212036 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 214013 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 214016 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| 214036 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 213013 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 213023 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216013 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216016 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 216023 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216025 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 216036 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 215016 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| 215025 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 2 | 7 | baş məsləhətçi |
| 217016 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |

| | | | | |
|---|---|---|---|---|
| | **7.4 Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti** | | | |
| 210113 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210114 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | böyük məsləhətçi |
| 210123 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210124 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **46** | | |
| | **8. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| 220303 | Ərazi orqanları ilə iş və kadrlar şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 224003 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 224016 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 223016 | Culfa Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 226016 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 225016 | Şahbuz Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227016 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **7** | | |
| | **9. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi** | | | |
| 230115 | İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi. Makroiqtisadi təhlil, proqnozlaşdırma və ərzaq təhlükəsizliyi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230416 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Rəqabətin qorunması sektoru | 1 | 6 | məsləhətçi |
| 230443 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Təbii inhisarlar və dövlət inhisarına aid xidmətlərin tənzimlənməsi sektoru | 1 | 6 | baş məsləhətçi |
| 230445 | Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Təbii inhisarlar və dövlət inhisarına aid xidmətlərin tənzimlənməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230915 | Satınalmalar şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **5** | | |
| | **10. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| 300105 | Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 300305 | Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 300205 | Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 300403 | İqtisadiyyat və maliyyə şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 300405 | İqtisadiyyat və maliyyə şöbəsi | 2 | 6 | aparıcı məsləhətçi |
| 300115 | Texniki nəzarət və aqroservis sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **7** | | |
| | **11. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| 243105 | Culfa Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 247105 | Sədərək Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **12. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi** | | | |
| 250013 | Aparat. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 250603 | İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsi. Musiqinin inkişafı üzrə | 1 | 6 | baş məsləhətçi |
| 250115 | Mədəniyyət və mədəni irs şöbəsi. İnformasiya resurslarının idarə edilməsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 250106 | Mədəniyyət və mədəni irs şöbəsi. Kino və videofilmlərin nümayişinin qeydiyyatı üzrə | 1 | 6 | məsləhətçi |
| 258007 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 258015 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 259007 | Şərur Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 252015 | Babək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 254016 | Ordubad Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 253007 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 253016 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 256016 | Kəngərli Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 255007 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 255016 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 257007 | Sədərək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **15** | | |
| | **13. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | |
| 270316 | Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi. Elektron təhlükəsizlik üzrə | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **14. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi** | | | |
| 280113 | Tibbi yardımın təşkili şöbəsi. Sanitariya və epidemioloji nəzarət üzrə | 1 | 6 | baş məsləhətçi |
| 280104 | Tibbi yardımın təşkili şöbəsi | 1 | 6 | böyük məsləhətçi |
| 280605 | Tibbi statistika və informatika sektoru. Həkim-statist | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| | **15. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| 290013 | Aparat. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 290023 | Aparat. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 290706 | Təhsilin idarə olunmasının məlumat sistemi və şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə sektor. İnformasiya-kommunikasiya texnologiyaları üzrə | 1 | 6 | məsləhətçi |

| | | | | |
|---|---|---|---|---|
| 290716 | Təhsilin idarə olunmasının məlumat sistemi və şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə sektor | 1 | 6 | məsləhətçi |
| 299107 | Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 299116 | Şərur Rayon Təhsil Şöbəsi. Kadr üzrə | 1 | 7 | məsləhətçi |
| 294107 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 293103 | Culfa Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 293116 | Culfa Rayon Təhsil Şöbəsi. Kadr üzrə | 1 | 7 | məsləhətçi |
| 296103 | Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 296105 | Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 295107 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297103 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **15** | | |
| | **16. Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** | | | |
| 410303 | Maliyyə-təsərrüfat və kargüzarlıq şöbəsi | 1 | 6 | baş məsləhətçi - mühasib |
| | **Cəmi:** | **1** | | |
| | **17. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi** | | | |
| 450226 | Torpaq məsələləri şöbəsi. Torpaq kadastrı və qeydiyyatı sektoru | 1 | 6 | məsləhətçi |
| 458003 | Naxçıvan Şəhər İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 459005 | Şərur Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 454006 | Ordubad Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 456006 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 457006 | Sədərək Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **6** | | |
| | **18. Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** | | | |
| 370406 | Layihə-ekspertiza şöbəsi | 1 | 6 | məsləhətçi |
| 370205 | Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 370206 | Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | məsləhətçi |
| 370105 | Suvarma sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| | **19. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi** | | | |
| | **19.1 Naxçıvan Şəhər Statistika İdarəsi** | | | |
| 398314 | Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 398414 | Tumbul kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| | **19.2 Şərur Rayon Statistika İdarəsi** | | | |
| 399006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 399214 | Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399494 | Maxta kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399584 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399114 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399224 | Zeyvə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399505 | Axaməd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399355 | Aşağı Aralıq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399255 | Aşağı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399575 | Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399265 | Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399135 | Xələc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399205 | Mahmudkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399585 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399115 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399275 | Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399296 | Həmzəli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399626 | Tənənəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **19.3 Babək Rayon Statistika İdarəsi** | | | |
| 392007 | Aparat | 1 | 7 | baş məsləhətçi - baş mühasib |
| 392124 | Nehrəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392154 | Cəhri kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392254 | Kültəpə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392324 | Vayxır kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392264 | Zeynəddin kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392135 | Çeşməbasar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392205 | Nəzərabad kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392185 | Yuxarı Uzunoba kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392356 | Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 392376 | Göynük kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **19.4 Ordubad Rayon Statistika İdarəsi** | | | |
| 394007 | Aparat | 1 | 7 | baş məsləhətçi - baş mühasib |
| 394006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 394103 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 394104 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394194 | Vənənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394145 | Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394265 | Azadkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394325 | Biləv kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394115 | Gənzə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394205 | Xanağa kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |

| | | | | |
|---|---|---|---|---|
| 394275 | Sabirkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394235 | Unus kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394135 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394165 | Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394316 | Çənnəb kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394296 | Düylün kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394376 | Gilançay kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394366 | Xurs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394356 | Nəsirvaz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394396 | Parağa kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394386 | Parağaçay qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| **19.5 Culfa Rayon Statistika İdarəsi** | | | | |
| 393103 | Culfa şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 393136 | Şurud kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| **19.6 Kəngərli Rayon Statistika İdarəsi** | | | | |
| 396005 | Statistika və təhlil şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 396006 | Statistika və təhlil şöbəsi | 2 | 7 | məsləhətçi |
| 396133 | Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 396154 | Xok kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396124 | Şahtaxtı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396185 | Xıncab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 396166 | Yeni Kərki kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| **19.7 Şahbuz Rayon Statistika İdarəsi** | | | | |
| 395007 | Aparat | 1 | 7 | baş məsləhətçi - baş mühasib |
| 395005 | Statistika və təhlil şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 395006 | Statistika və təhlil şöbəsi | 2 | 7 | məsləhətçi |
| 395104 | Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 395225 | Şahbuzkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395276 | Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395196 | Gömür kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395156 | Güney Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395136 | Nursu kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395316 | Şada kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395286 | Türkeş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| **19.8 Sədərək Rayon Statistika İdarəsi** | | | | |
| 397003 | Statistika və təhlil şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 397005 | Statistika və təhlil şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 397113 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 397125 | Qaraağac kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | | **78** | | |
| **20. Naxçıvan Muxtar Respublikasının Şəhərsalma və Arxitektura Komitəsi** | | | | |
| 380605 | İqtisadiyyat və mühasibat uçotu sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **21. Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası** | | | | |
| 440105 | Aparat | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **22. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu** | | | | |
| 490305 | Pensiya Şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 498705 | Naxçıvan Şəhər Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 498605 | Naxçıvan Şəhər Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 498606 | Naxçıvan Şəhər Şöbəsi. Gəlirlər sektoru | 3 | 7 | məsləhətçi |
| 498805 | Naxçıvan Şəhər Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 499706 | Şərur Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 2 | 7 | məsləhətçi |
| 499606 | Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 4 | 7 | məsləhətçi |
| 499906 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 3 | 7 | məsləhətçi-mühasib |
| 499806 | Şərur Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 2 | 7 | məsləhətçi |
| 492705 | Babək Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 492906 | Babək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 492805 | Babək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 494706 | Ordubad Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 494606 | Ordubad Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| 494906 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 494806 | Ordubad Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 2 | 7 | məsləhətçi |
| 493706 | Culfa Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 493906 | Culfa Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 496705 | Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496706 | Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 496906 | Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 496805 | Kəngərli Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 495706 | Şahbuz Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 495605 | Şahbuz Rayon Şöbəsi. Gəlirlər sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 495906 | Şahbuz Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 495805 | Şahbuz Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497705 | Sədərək Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497605 | Sədərək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497606 | Sədərək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| 497805 | Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | | **46** | | |
| **23. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** | | | | |
| 550103 | İcbari tibbi sığorta işinin təşkili şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 550105 | İcbari tibbi sığorta işinin təşkili şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 550203 | Səhiyyə və sosial-iqtisadi təhlil şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 550213 | Səhiyyə və sosial-iqtisadi təhlil şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| **24. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi** | | | | |
| 480013 | Aparat. Baş metodist | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **25. Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti** | | | | |
| 520075 | Baytarlıq nəzarəti və müfəttişlik sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **26. Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti** | | | | |
| 260205 | Nəqliyyatın təşkili və idarə edilməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **27. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti** | | | | |
| 660105 | Turizmin inkişafı və təbliği sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 660203 | Statistika və sertifikatlaşdırma sektoru | 1 | 6 | baş məsləhətçi |
| 660303 | Maliyyə-təsərrüfat və ümumi işlər sektoru. Direktorun köməkçisi | 1 | 6 | baş məsləhətçi |
| 660305 | Maliyyə-təsərrüfat və ümumi işlər sektoru. Kadr və kargüzarlıq işləri üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| **28. “Naxçıvanqaz” İstehsalat Birliyi** | | | | |
| 350023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | - | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **29. Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi** | | | | |
| 540013 | Aparat | 1 | 7 | baş məsləhətçi |
| 540016 | Aparat | 2 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| **30. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi** | | | | |
| 710005 | Aparat | 2 | 6 | hakim köməkçisi |
| 710126 | Aparat | 1 | 6 | məsləhətçi |
| 710116 | Aparat. Məhkəmə iclas katibi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| **31. Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi** | | | | |
| 800005 | Aparat | 2 | 6 | hakim köməkçisi |
| 800106 | Aparat. Məhkəmə iclas katibi | 3 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **5** | | |
| **32. Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi** | | | | |
| 810005 | Aparat | 1 | 6 | hakim köməkçisi |
| 810116 | Aparat | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| **33. Naxçıvan Şəhər Məhkəməsi** | | | | |
| 780106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **34. Şərur Rayon Məhkəməsi** | | | | |
| 790005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 790106 | Aparat. Məhkəmə iclas katibi | 2 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| **35. Babək Rayon Məhkəməsi** | | | | |
| 720005 | Aparat | 2 | 7 | hakim köməkçisi |
| 720106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| **36. Ordubad Rayon Məhkəməsi** | | | | |
| 740005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| | **Cəmi:** | **1** | | |
| **37. Culfa Rayon Məhkəməsi** | | | | |
| 730104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| **38. Kəngərli Rayon Məhkəməsi** | | | | |
| 760104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| 760106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| **39. Sədərək Rayon Məhkəməsi** | | | | |
| 770005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **Yekun:** | **304** | | |

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 811